# XƏZƏR DƏNİZİ KİÇİK QIZILAĞAC KÖRFƏZİNİN MAKROZOOBENTOSUNUN YENİ EKOLOJİ ŞƏRAİTDƏ ÖYRƏNİLMƏSİNƏ DAİR

**Əlizadə F.Ə.**

*Bakı Dövlət Universiteti*
*faridalizadeh99@mail.ru*

Kiçik Qızılağac Körfəzi Respublikanın iqtisadi əhəmiyyətində rolu böyük olmuşdur. Uzun dövr ərzində burada balıqçılıq təsərrüfatı fəaliyyət göstərir, körfəzin böyük bir hissəsi yasaqlığa çevrilmişdir. Burada müxtəlif quşlar qorunub saxlanılır. Son illərdə körfəzdə ekoloji şərait dəyişmişdir, körfəzə daxil olan çayların suyu azalmış, körfəz isə dayazlaşmışdır. Böyük bir ərazini yumşaq və cod su bitkiləri örtmüşdür. Bu məqsədlə bizim tərəfimizdən körfəzdə makrozoobentosun növ tərkibinə dair 2020-2022 – ci illərdə fəsillər üzrə materiallar toplanıb təhlil olmuşdur. Müşahidələr zamanı körfəzin bentofaunasından 2 sistematik qrupa daxil olan 80 növ orqanizm qeydə alınmışdır, aşkar olunan orqanizmlərin 70,5 %-i su həşəratlarına (iynəcə sürfələri, gündəcə sürfələri, yarımsırtqanadlılar, sərtqanadlılar, xironmid sürfələrinə) aiddir. Qeyd etmək lazımdır ki, Kiçik Qızılağac Körfəzinin müxtəlif hissələrindən – balıq yolu kanalı, qəza kanalı, bənd hissəsi, Boladı çayın körfəzə birləşən hissələrindən nümunələr topladım. Müxtəlif təyinat kitablarından istifadə etməklə orqanizmləri növ tərkibinə qədər təyin etdim. Apardığım tədqiqat işini V.İ.Jadin metodu əsasında yerinə yetirdim.

Tədqiqatlar əsasında ərazidə ***Oligochaeta*** *- Dero dorsalis* Ferr., *Ophidonais serpentina* (Müll.), *Limnodrilus undekemianus Clap., Tubifex tubifex* (Müll.), *Eisenia rosea* (Savigny.). ***Hirudinea*** *- Piscicola geometra* (L.), *Hirudo medicinalis orientalis* (L.). ***Mollusca*** *- Radix auricularia* (L.), *Acroloxus lacustris* (Linne), *Planorbis planorbis* (Linne), *Theodoxus pallasi* Lindh. ***İsopoda*** *- Asellus aquaticus* (L.). ***Odonata*** *- Coenagrion scitulum* Ramb., *C. pulchellum* V.d.L., *Aeschna affinis* V.d.L., *A.grandis* L., *Somatochlora metallica* V.d.L., *Libelulla depressa* L., *Sympetrum danae* Sulz., *S.vulgatum* L. ***Ephemeroptera*** *- Ephemera vulgata* L., *Siphlonurus linneanus* Etn., *Cloëon dipterum* (L.) Bgts., *Ordella macrura* Steph. ***Trichoptera*** *- Ecnemus tenellus* Ramb. ***Hemiptera*** *- Corixa dentipes* (Thoms.), *C. affinis* Leach., *Notonecta glauca* L., *N.lutea* Müll., *Hydrometra stagnorum* (L.). ***Coleoptera*** *- Hydrobius fuscipes* Linne, *Hydrophilus* sp.*(flavipes* Steven*)*. ***Diptera*** *- Odagmia caucasica caucasica* Rubz., *Chaoborus crystallinus* De Geer. ***Chironomidae*** *- Tanytarsus gregarius* Kieff., *T.lauterborni* Kieff., *Cryptochironomus conjugens* Kieff,, *C. defectus* Kieff., *Chironomus plumosus* L., ***Ch.thummi*** Kieff., *Limnochironomus nervosus* Staeg., *Polypedilum nubeculosum* **Mg.**, ***Pelopia villipennis*** Kieff,, *Procladius ferrugineus* Kieff., *Ablabesmyia* sp. ***Cerotopogonidae*** *- Culicoides* sp. yayıldığı müəyyən edildi.

Kiçik Qızılağac Körfəzinin makrozoobentosunda aşağıdakı növlər,



Ekologiya və torpaqşünaslıq elmləri XXI əsrdə. III Respublika Elmi Konfransı

demək olar ki, bütün fəsillərdə rast gəlinirlər. Buraya *D.dorsalis. O.serpentina, T.tubifex, H.m.orientalis R. auricularia, P.planorbis, C.scitulum, C.pulchellum, A.grandis, S.metallica, L.depressa, E.vulgata, O.macrura, C.dentipes, C.affinis, N.lutea, H. fuscipes, P.lauterborni, C.conjugens, Ch.plumosus, Ch.thummi, P.nubeculosum, Procladius ferrugineus, Culicoides* sp. kimi növlər daxildir. İl ərzində rast gəlinən növlərin arasında isə *T.tubifex, H.m.orientalis P.planorbis, C.affinis, N.lutea, C.conjugens, Ch plumosus, Ch.thummi, P.nubeculosum, Pr.ferrugineus* kimi növlər körfəzin hər yerində daha tez-tez və külli miqdarda rast gəlinirlər. Bu növləri körfəzdə makozoobentosunun fonverici növləri də adlandırmaq olar. Kiçik Qızılağac Körfəzinin müasir makrozoobentosunda növ sayına və rastgəlmə intensivliyinə görə xironomid sürfələri (11 növ), iynəçə sürfələri (8 növ) və azqıllı qurdlar (5 növ) üstünlük təşkil edirlər. Makrozoobentosun digər qrupları 1 – 3 növlə təmsil olunurlar.